# Heydər Əliyev Fondu tərəfindən Saatlının ucqar kəndində yeni məktəb binası inşa olunub

**Saatlı rayonunda yeni inşa olunan İkram Ağayev adına Nabatkənd tam orta məktəbin binasının açılışı olub.**



Heydər Əliyev Fondu tərəfindən inşa olunan yeni binanın açılış mərasimində Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov, Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Astanov, Mil-Muğan Regional Təhsil İdarəsinin müdir müavini Rabil Şahbazov, məktəb kollektivi və ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, açılış mərasimində çıxış edənlər dövlətimiz tərəfindən təhsilə göstərilən diqqət və qayğıdan söhbət açıblar. Qeyd edilib ki, son illər bir çox ucqar kənddə yeni məktəb binaları inşa edilib, həmçinin bir sıra binalar əsaslı təmir olunub. Bildirilib ki, Nabatkənd tam orta məktəbin binası 1937-ci ildə inşa edilib. Ötən müddət ərzində bina istifadəyə yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən yeni məktəb binası inşa olunub.

624 şagird yerlik yeni məktəb binasının inşasına 2024-cü il may ayında başlanılıb. Dördmərtəbəli məktəb binası 4 korpusdan ibarətdir. Burada sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, qarderob, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası var.

Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, asfalt örtüyü döşənib, dekorativ kol və ağaclar əkilib, müasir işıqlandırma sistemləri quraşdırılıb.

Yeni məktəb binasının açılışına ən çox sevinənlər müəllim və şagirdlərdir. 8-ci sinif şagirdi Xumar Təhməzova deyir ki, onun üçün ən sevincli günlərdən biridir: "Əvvəlki məktəb binasında şəraitimiz yaxşı deyildi, qış fəslində sinif otaqları soyuq olurdu. Amma o günlər artıq geridə qaldı. Yeni məktəb binasının açılışı məni çox sevindirir. Sinif otaqları geniş və işıqlıdır, fizika, kimya, kompüter və digər otaqlarımız var. Həmçinin məktəbimizdə idman zalı və meydança da var. Çalışacağıq ki, dərslərimizi daha yaxşı oxuyaq".

Məktəbin müəllimi Vüqar Hüseynov isə bildirib ki, yeni binanın inşası kollektiv üçün ən böyük hədiyyədir. "Son illər məktəb binası yararsız hala düşmüşdü. Bir neçə dəfə cari təmir olunsa da, bina istismar müddətini başa vurmuşdu. Heydər Əliyev Fondunun təşəbbüsü ilə kəndimizdə müasir məktəb binası tikildi. Bu, biz müəllimləri və şagirdləri çox sevindirir. Məktəb kollektivi və kəndimiz adından Heydər Əliyev Fonduna təşəkkürümüzü bildiririk".

Daha sonra məktəb binasında yaradılan şəraitlə tanışlıq olub.

Azərbaycan.- 2025.-27 sentyabr (№207).- S.16.